**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BAKI ŞƏHƏRİNİN AZMƏRTƏBƏLİ EVLƏRİNİN MEMARLIQ-PLANLAŞMA İNKİŞAFINA İQLİM AMİLLƏRİNİN TƏSİRİ

İxtisas: 6404.01 – Bina və qurğuların memarlığı

Elm sahəsi: Memarlıq

İddiaçı: **İlqar Oruc oğlu Əliyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq layihələndirməsi və şəhərsalma" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər:

Azərbaycan Dövlət Mükafatı laureatı, Əməkdar ali məktəb işçisi, memarlıq doktoru, professor
**Ramiz Həmid oğlu Əbdülrəhimov**

Rəsmi opponentlər:

memarlıq doktoru, professor
**Gelfong Anna Lazarevna**

memarlıq namizədi, dosent
**İsxodjanova Qalina Raşetovna**

memarıq namizədi, professor
**Gerneralov Viktor Pavloviç**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən BFD 2.29 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri:

memarlıq doktoru, professor
**Gülçöhrə Hüseyn qızı Məmmədova**

Dissertasiya şurasının elmi katibi:

memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Məlahət Tapdıq qızı Eynullayeva**

Elmi seminarın sədri:

memarlıq doktoru, professor
**Şəhla Şıxəli qızı Qəhrəmanova**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycanda yaşayış evlərinin memarlıq təkamülü ölkənin maddi mədəniyyətinin inkişafı ilə üzvü şəkildə əlaqəlidir. Bu tikililər mağaralardan, qaradamlardan tutmuş müasir avadanlıqla təchiz edilmiş yeni evlərə kimi çoxəsrlik inkişaf yolu keçmiş və tikildiyi dövrün inşaat nailiyyətlərini əks etdirərək öz memarlıq-planlaşdırma inkişafı ilə bu dövrün tələbləri ilə birgə irəliləmişlər. Abşeron, eləcə də Bakı memarlığında azmərtəbəli yaşayış evləri regionun təbii-coğrafi, sosial-iqtisadi, maddi-texniki tələbləri, əhalinin məişət və maddi durumu, həmçinin estetik zövqü ilə birbaşa əlaqəlidir. Bakının bədii-memarlıq görkəminin qorunması və təkmilləşdirməsi yollarından biri də bu yaşayış memarlığının kompleks tədqiqatının aparılmasıdır. Bununla əlaqəli təbii-iqlim faktorlarının təsiri altında azmərtəbəli evlərin layihələndirmə təcrübəsinin öyrənilməsi nəzəri və praktik əhəmiyyət daşıyır. Dissertasiyanın mövzusunun aktuallığını azmərtəbəli evlərin varislik mexanizmlərinin və onlarda istifadə edilən dayanıqlı memarlıq-planlaşdırma üsullarının öyrənilmə zəruriliyi müəyyən etmişdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Tədqiqatın aparıldığı bölgədə müxtəlif dövrlərdə tikilən yaşayış binalarının bir sıra problemləri M.Ə.Hüseynov, L.S.Bretaniski, Ə.V.Salamzadə, D.A.Axundov, Q.Ə.Əlizadə, S.A.Dadaşov, Ş.S.Fətullayev-Fiqarov, A.P.İvanitski, C.Ə.Qiyasi, V.H.Kərimov, Ə.Ə.Qasımzadə, G.H. Məmmədova, E.V.Avalov, R.M.Əfəndizadə, A.M.Mehdiyev, K.M. Məmmədzadə, R.B.Əmənzadə, R.Ş.Əliyeva, V.H.Muradov, N.K.Rzayev və başqa müəlliflərin elmi əsərlərində təhlil edilmişdir.

Müasir Azərbaycan şəhərsalmasının inkişafı və yaşayış mühitinin şəhərsalma strukturunda formalaşması, iqlimşünaslığın memarlıq və şəhərsalmaya təsiri məsələlərinin tədqiqinə F.M.Hüseynov, N.H.Nağıyev, R.H.Əbdülrəhimov, Ş.Ş. Qəhramanova, A.Ə.Həsənova, A.T.Qasımov, N.Ə.Əliyev, Y.Ə. Hacıyeva, S.H.Orucov və başqa alimlərin elmi işləri təkan vermişdir.

**Tədqiqatın məqsədi** Abşeronun təbii-iqlim amillərinin təsiri altında Bakının azmərtəbəli yaşayış evlərinin memarlıq-planlaşdırma həllərinin mövcud vəziyyətinin və inkişaf prinsiplərinin müəyyən

edilməsindən, memarlığın inkişafı prosesində baş verən dəyişikliklərin öyrənilməsindən, memarlığın proqressiv cəhətlərinin üzə çıxarılması ilə müasir tələblərə uyğun təkmilləşdirmə yollarının təklif edilməsindən ibarətdir.

Tədqiqatda aşağıdakı **əsas məsələlərin** həlli göstərilmişdir:

- Bakıda tarixi şəhərsalma proseslərinin azmərtəbəli evlərin memarlığının formalaşmasına təsirinin və inkişaf prinsiplərinin öyrənilməsi;
- Abşeronun təbii iqliminin azmərtəbəli yaşayış binalarının memarlıq-planlaşdırma həllərinin formalaşmasına təsirinin tədqiqi;

- Bakının azmərtəbəli evlərinin tiplərinə və yerləşdiyi coğrafi bölgəyə uyğun olaraq bədii-memarlıq həllərinin təhlili;
- İqlim amillərinin azmərtəbəli yaşayış evlərinin konstruktiv sxemlərinə və elementlərinə təsirinin araşdırılması;
- Abşeronda azmərtəbəli evlərdə, villa tipli binalarda və bağ evlərində istifadə olunan müasir materialların və konstruksiyaların iqlimə görə tətbiqi və layihələndirilməsi yollarının öyrənilməsi;
- Bakının tarixi azmərtəbəli evlərinin tiplərinin proqressiv cəhətlərinin və təkmilləşdirmə prinsiplərinin müəyyən edilməsi.

**Tədqiqatın predmeti** iqlim amillərinin təsiri altında Abşeronun, o cümlədən Bakının müxtəlif dövr azmərtəbəli yaşayış evlərinin memarlıq-planlaşdırma həllərinin öyrənilməsidir.

**Tədqiqatın obyektini** Bakı şəhərində təbii iqlim amillərinin təsiri altında formalaşan xalq və monumental azmərtəbəli yaşayış evləri təşkil edir.

**Tədqiqatın xronoloji və coğrafi sərhədləri** e.ə. bir neçə minillikdən müasir dövrə-XXI əsrin əvvəllərinə qədərki zamanı, ərazi sərhədləri Bakını və qismən Abşeron yarımadasını əhatə edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarına** Bakı və Abşeron ərazisində müxtəlif dövrlərdə inşa edilmiş azmərtəbəli evlərin memarlıq-planlaşdırma həllərinə dair elmi tədqiqat işlərinin və arxiv sənədlərinin, layihə institutlarının materiallarının əsasında yaşayış memarlığının tarixi-mədəni potensialının, təbii-iqlim faktorlarının təsiri altında yaranan memarlıq mühitinin, həmçinin daha xarakterik yaşayış evlərinin

planlaşdırma və kompozisiya sxemlərinin, bədii-estetik keyfiyyətlərinin sistemli təhlili və fotofiksasiyası daxildir. Elmi işdə müxtəlif dövrlərdə ölkənin yaşayış evlərini araşdıran bir sıra alimlərin yazılı elmi mənbələrinə istinad edilib.

**Tədqiqatın elmi yeniliyi** ilk dəfə Abşeronun təbii-iqlim şəraitində müxtəlif dövrlərə aid yaşayış tikililərinin konstruktiv, planlaşdırma və bədii-estetik həlləri, onların təkamülünün tarixi ardıcıllıqla kompleks tədqiqindən ibarətdir. Aparılan tədqiqat nəticəsində Bakı şəhərində və onun ətrafında qədimdən bu günə kimi formalaşmış yaşayış evlərinin memarlıq həllərinin inkişafına aid yeni məlumatlar əldə olunmuş və onların təkmilləşməsinə dair səmərəli təkliflər verilmişdir. İlk dəfə bölgənin sosial-iqtisadi və təbii-iqlim amillərinin təsiri altında yaşayış memarlığının oxşar və fərqli cəhətləri aşkarlanaraq tarixi-etnoqrafik baxımdan daha dayanıqlı ənənəvi inşaat üsulları müəyyən olumuşdur.

**Tədqiqatın praktiki əhəmiyyəti** Bakı şəraitində azmərtəbəli yaşayış evlərinə yerli təbii iqlimin və tikinti materiallarının təsiri nəzərə alınaraq, müasir yaşayış tikintisində tikinti layihələndirilməsinin mahiyyəti və çoxalması ilə ölçülür. Bakının kənar rayonlarında qarışıq mərtəbəli ev tikintisinin çoxalmasını nəzərə alaraq, onların saxlanılmasının əlverişli olması təsdiq edilir.

**Dissertasiya işinin aprobasiyası.** Elmi işin əsas müddəaları müəllifin müxtəlif elmi-praktiki konfranslarda çıxışlarında yer almışdır. Dissertasiyanın əsas nəticələri müxtəlif elmi jurnallarda nəşr olunmuşdur. Bakı şəhəri və Abşeronun digər yaşayış məntəqələrinin azmərtəbəli yaşayış evlərinin memarlıq-planlaşdırma həllərinə aid müəllifin apardığı elmi araşdırmalar, verdiyi tövsiyələr Bakı Layihə İnstitutunun, Azərbaycan Memarlıq və İnşaat Elmi-Tədqiqat İnstitunun, Azərbaycan Memarlıq və İnşaat Universitetinin və Azərbərpa Elmi-Tədqiqat Layihə İnstitutunun layihə işlərində istifadə olunub və istifadə olunması nəzərdə tutulur.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil, ümumi nəticə, ədəbiyyat siyahısı və illüstrasiya cədvəllərindən (56 sayda) ibarətdir. Dissertasiyanın ümumi həcmi 135 səhifəni (244027 işarə) əhatə edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Fəsil I. Bakı şəhərinin azmərtəbəli yaşayış evlərinin memarlığının formalaşması.**

**1.1. Bakıda tarixi şəhərsalma prosesinin azmərtəbəli yayayış binalarının formalaşmasına təsiri.** Bakı şəhərində yaşayış evlərinin tikintisinin inkişafını aşağıdakı beş mərhələ üzrə araşdırmaq olar: ibtidai icma quruluşunun yaşayış yerləri, qədim dünyanın ilkin sivilizasiyasının yaşayış tikintiləri; orta əsr yaşayış məhəllələri; XIX – XX əsrin əvvəllərinin yaşayış kvartallarının azmərtəbəli evləri; müasir azmərtəbəli evlər və villalar.

Abşeronun cənubunda təbii körfəzin olması və yerli materiallardan (təbii əhəng daşından, but daşdan və gildən) bacarıqla istifadə edilməsi, relyef, iqlim, təbii su ehtiyatları, karvan yolları bu bölgənin yaşayış məskəni kimi formalaşmasını və orta əsr memarlıq görkəmini müəyyən etmişdir. XVII əsrdən sonra Bakı qalasında yeni evlərin tikintisi daha sürətlə davam edir və baş küçələrə çıxan bu tikililər əlavə funksiyalar da daşıyırdı.

XIX əsrin sonunda və XX əsrin birinci yarısında əhali sayının kəskin artması səbəbindən yaşayış evlərinin tikintisi qalanın xaricinə çıxmışdı. Binaların memarlıq-planlaşdırma həlli yerli iqlim şəraiti nəzərə alınmaqla kiçik məhəllələr şəklində həyata keçirdi. Şəhər strukturunda yerindən asılı olaraq mənzillər bir, iki, bəzən də dörd tərəfə səmtləşdirilirdi. Şəhərin qala və sahilyanı ərazilərində Avropa ölkələrinin şəhərsalma və memarlıq ideyalarına əsaslanan və yerli iqlim şəraitlərinə uyğun olan 1-2 mərtəbəli imarət tipli evlər inşa edilirdi. Bu mərhələdə orta və azmərtəbəli evlərdən ibarət sıx tikinti kvartallarının salınması səciyyəvi idi. İqlim amilləri fəal şəkildə planlaşma quruluşunun dəyişməsinə təsir edirdi. Həyət tərəfdən mənzillərin önündə şüşəli qalereyalar tikilirdi. Onlar Bakı şəraitində otaqları günəş və küləkdən qoruyaraq, bir növ ənənə şəklini almışdı.

1927-ci ildə A.P.İvanitskinin tərtib etdiyi baş planda yaşayış zonasına şimal tərəfdən geniş, uzun yaşıl bulvar daxil edilmiş, Bakı ətrafında, neft mədənlərinin yaxınlığında azmərtəbəli yaşayış evlərinin memarlığının inkişafında müəyyən rolu olan 1-2 mərtəbəli eyni tipli evlərdən ibarət fəhlə qəsəbələri nəzərdə tutulmuşdur.

1932-ci ildə professor V.H. Semyonovun rəhbərliyi ilə reallaşan baş planda Abşeronda kompleks şəkildə ərazi məskunlaşma və yaşıllaşdırma üsulundan istifadə olunmuş, şəhər və qəsəbələrin mədəni-məişət xidməti şəbəkəsi nəzərdə tutmuşdu.

1937-ci ildə professor L.A.İlyinin hazırladığı Bakının baş planında şəhərin amfiteatr şəkilli yerləşməsini nəzərə alan şəhər ərazisinin zonalaşma sxemi təqdim edilmişdir. "Təbii amfiteatrı nəzərə çarpdıran şəhər ərazisinin zonalaşma sxemində dəniz tərəfdə 3-4 mərtəbəli tikinti sahəsi (1 mərhələ) tədricən amfiteatrın orta hissəsində 6-8 mərtəbəliyə (2 mərhələ) və nəhayət sonuncu terasda 7-10 mərtəbəli (3 mərhələ) tikinti sahəsinə keçirdi"[1].

Bakı 1974-cü ilin baş planında 10 planlaşdırma rayonuna bölünmüşdür. Burada nəqliyyat əlaqələri, funksional zonalaşdırma, yaşayışın sənaye zonalarından kənarlaşdırılması, şəhərin maksimal dərəcədə dənizə açılışı, sanitar-gigiyena şərtlərinə riayət edilməsi, səmərəli yaşıllaşdırma və digər ekoloji prinsiplər nəzərə alınmışdır.

1985-ci ildə tərtib olunan Bakı-Abşeron regionunun baş planında insanlar üçün komfort şəraitinin yaradılması əsas məsələ kimi qoyulmuşdur. Hal-hazırkı son baş planda şəhərin ən əsas problemlərindən olan nəqliyyat hərəkətlərinin optimal tənzimlənməsinin həlli yolları verilib.

**1.2. Bakının azmərtəbəli yaşayış evlərinin memarlıq-planlaşdırma həllərinin inkişaf prinsipləri.** Bakı şəhərinin qalaiçi "şəhristan" hissəsində orta əsrlərdə əsasən əyanlar, ruhanilər, tacirlər, qalanın xarici "rabad" hissəsində isə sənətkarlar, fəhlələr. məskünlaşmışdı. Sosial strukturun fərqli olması səbəbindən yaşayış sahələrinin durumu və tərkibi vaxtaşırı dəyişirdi. XII-XV əsrlərdə tikilən qala divarları və bürclər burada sıx tikinti sahəli məhəllələrin formalaşmasına səbəb olmuşdu. XVIII əsrdə sənətkarlığın genişlənməsi səbəbindən yeni yaşayış məhlələri salınırdı, məscidlər, karvansaralar və dükanlar tikilirdi.

Bakının qala daxili yaşayış sahələri ilə yanaşı, qala xaricində - şərqə və şimal-qərbə tərəf yeni yaşayış sahələri salınır, inkişaf edirdi. Bakının ilkin məhəllələri 1-2 mərtəbəli evlərdən və kiçik daxili

---

[1] Aliyev, I.O. Развитие градостроительной науки Азербайджана в советский период. Журнал Архитектура и Строительство России. №4. Москва-2021, s. 16.

həyətlərdən ibarət idi. Onların yerləşdiyi dalanlar məhəllənin xaricə çıxışını, dalanlara çıxan pəncərələr isə otaqların təbii işıqlanmasını və insolyasiyanı təmin edirdi.

1806-cı ildən Bakı Rusiya imperiyasının tabeçiliyində "quberniya paytaxtı" statusu əldə etməklə öz tikinti sahəsini forştadta (Bayır şəhərə) tərəfə inkişaf edirdi. İçərişəhərin məhdud olan ərazisində bəzi yaşayış evlərinin hündürlüyü 3 mərtəbəyə kimi ucalmışdı. XIX əsrin ikinci yarısında Bakıya çoxlu işçi qüvvəsinin axını şəhərdə yeni planlaşdırma tendensiyalarını müəyyən edən orta mərtəbəli yaşayış evlərinin tikintisinə təkan verdi. Bakının keçmiş Sovet küçəsinin yuxarı hissəsinin kəskin relyef forması yaşayış evi qruplarının eniş aşağı pilləli yerləşməsinə səbəb olmuşdur.

XIX əsrin axırlarında dağüstü-qərb, şərq və şimal-qərb zonasında yaşayış evlərinin məhəllə tipli kvartallarında 2-3 mərtəbəli evlərdən ibarət küçələr formalaşırdı. Şəhərin ticarət mərkəzində, İstiqlaliyyət küçəsi boyu "gəlir evləri" ilə bərabər 2-3 mərtəbəli mülk tipli evlər yerləşmişdi. Bu binaları digərlərindən fərqləndirən cəhət onların yüksək bədii tərtibatı idi. Şəhərin mərkəzi zonasında imarət tipli mülklər birləşərək kiçik həyətli kvartallar təşkil edirdi. Perimetral plan quruluşlu kvartallardakı evlərin birinci mərtəbəsində bir mənzil və dükan, üst mərtəbələrində isə 4-5 mənzil yerləşdirilirdi. Bu dövrdə tikilən yaşayış evlərinin bir qismi təmtəraqlı, digər hissəsi isə aztəminatlı ailələrin sadə evlərindən ibarət idi.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqda şəhər sakinlərinin yaşayış evləri ilə təmin olunması mühüm məsələlərdən birinə çevrildi. Bakının sənaye rayonlarında mənzillə təmin olunma problemi sadə planlaşdırma həllərinə malik birmərtəbəli evlərdən ibarət yeni fəhlə qəsəbələrinin tikintisinə səbəb oldu[2].

1930-cu illərdə Bakının şimal-qərbində yerləşən Bakıxanov qəsəbəsində 2-3 mərtəbəli evlərdən ibarət yeni yaşayış rayonu salındi. Lakin bu binaların əhalinin tələbatını ödəmədiyi üçün iş yerlərinə yaxın ərazilərdə yeni fəhlə qəsəbələrinin salınmasına tələbat yarandı. Yeni salınan rayonlarda yaşayış evlərinin əlverişli küləklənmə və

---

[2]Aliyev, I.O. Влияние природно-климатических факторов Апшеронского полуострова на архитектурно-планировочные особенности малоэтажной застройки Баку. Журнал AMIT МАРХИ. №2(51). Москва-2020, s. 298.

cəhətləndirilməsi ilə yanaşı, balkon və lodcilərin köməyi ilə fasad kompozisiyası yeni görkəm əldə etmişdir. Yarımqapalı kvartalı xatırladan planlaşdırma sxemi Bakının iqlim şəraitinə və əhalisinin sosial tələblərinə uyğun idi. Sonrakı illərdə Bakının dağüstü şimal-qərb hissəsində şəhər tipli, Qanlı göl ətrafında isə kiçik həyətləri olan azmərtəbəli kənd tipli evlər tikilməyə başladı.

**1.3. Abşeronun təbii-iqlim göstəriciləri və onların xüsusiyyətləri.** Bakının tikinti xarakterini onun yerləşdiyi amfiteatr, Xəzər körfəzinin landşaftı və iqlimi müəyyən edir. Burada iqlim öz bəlitəsirini Bakının isti quru iqlim şəraitində göstərir. Şəhər dənizdən üzü yuxarı körfəzi əhatələyən üç terraslı amfiteatr şəklindədir. Birinci və ikinci relyef terrasında yaranan keçid, iqlim şəraitinə uyğun müəyyən həcm-məkan həllinin meydana gəlməsinə imkan vermişdir. Bakının yaşayış sahələrinin 2/3 hissəsi məhz ikinci terrasda yerləşir.

Evlərin iqlim şəraitlərinə uyğun inşasında hakim küləklərin və otaqların səmtinə xüsusi diqqət yetirilirdi. Abşeronda otaqların komfortlu mikroiqliminin saxlanılması üçün optimal səmtlər cənub, şərq və cənub-şərq hesab edilir....Məsələn, Maştağa, Bilgəh, Buzovna və Şüvəlanda evlərin çoxu şərqə istiqamətlənir.

Bakının il boyu güclü xəzri küləkləri şəraitində evlərin ikitərəfli küləklənməsi əlverişlidir, lakin azmərtəbəli evlər küləyin yönünü dəyişə bilmir. Rəsulzadə, Biləcəri, Badamdar kimi qəsəbələrdə, 7 və 8-ci mikrorayonda, və Qara şəhərdə yaşıllaşdırma yaşayış tikinti sahəsinin perimetral və sıravi-perpendikulyar strukturuna təsir edir və mülayim mikroiqlim yaradır. Təbii-iqlim şəraitləri Bakı qalasının torvari məhəllə şəbəkəsinin yaranmasında, insolyasiya və aerasiya problemlərinin həllində aparıcı amildir.

Abşeronda güclü küləkdən yaranan tozdan müdafiə üçün hündür daş hasarlar tikilirdi.. Abşeron evləri adətən biri təntənəli qonaq otağına ayrılan iki otaqdan ibarət idi. Mətbəx, dəhliz və təsərrüfat yerləşgələri isə ayrıca tikili kimi yaşayış evinə birləşirdi.

Abşeron evlərində Azərbaycanın digər bölgələrində mütləq olan örtülü eyvanlar yoxdur. Burada eyvanlar torpaqdan 30-50 sm yuxarı qaldırılan düz meydançalarla əvəz edilirdi. Xalq yaşayış evlərinin çoxu birmərtəbəli idi və ikinci mərtəbə olduqda, üstdə qonaq otağı yerləşirdi. Küçəyə pəncərəsiz arxa fasad çıxır, həyətə baxan baş fasadda isə yalnız

giriş olurdu. Düzbucaq formalı həyət çox zaman öz ensiz tərəfi ilə küçəyə çıxırdı. Bölgədə əhəng daşının bolluğu burada tağbənd, gümbəz konstruksiyalarının yayılmasına təsir etmişdir. Xarici və daxili divarlar qalınlığı 70-80 sm-lik qırma daşdan hörülərək əhənglə suvanırdı.

Sözü gedən bölgənin isti və quraq iqlim, güclü şimal və cənub küləkləri, meşəliyin qıtlığı, daşının və bit daşının bolluğu kimi təbii-iqlim faktorları Abşeron kəndlərində ənənəvi yaşayış evinin formalaşmasına təsir göstərib. Burada xalq yaşayış memarlığının səciyələndirən cəhətlərdən biri də çox sıx və pilləvari yerləşdirilən evlərin yastı damlarından yayda istirahət yerləri kimi istifadəsidir.

## II Fəsil. Bakıda azmərtəbəli yaşayış evlərinin mövcud vəziyyətinin təhlili.

**2.1. Azmərtəbəli yaşayış evlərinin tipoloji əsasları.** Bakı və onun ətraf kəndlərinin yaşayış evlərinin memarlığını formalaşdıran təkcə bu zonanın təbii şəraiti deyil, həm də burada yaşayan əhalinin məşğuliyyət formasıdır. Yaşayış evlərinin sıx məhəllə sistemində düzülüş və yerləşmə məntiqi normal insolyasiya və aerasiya şəraitlərinin yaranmasına imkan verən həyətlərin qapalılığında, sıx qonşuluq ünsiyyətində, dalan-keçidlər şəbəkəsinin əlverişli plan quruluşunda idi. Burada şimal küləklərinin kəskinliyi səbəbindən evə giriş qapıları əsasən cənub-şərq və cənubda yerləşdirilirdi. Yay məkanları olan eyvanlar digər region evlərində bir və ya iki tərəfdə olduğu halda, burada dörd tərəfdə idi. İsti iqlim üçün vacib olan məhəllə-dalan sistemi kölgə yaradaraq günəş şüalarının təsirini azaldırdı. Kiçik həyətlərdə talvarlar və ev ətrafında səkilər mütləq idi.

Abşeronda meşənin, suyun qıtlığı, tikinti sahəsinin sıxlığı evlərin memarlığına təsir göstərərək müxtəlif planlaşma strukturunun yaranmasına səbəb olmuşdur. Abşeronda - “dublalı” və “günbəzli” evlərin, subtropik rayonlarda - “ləmlərin”, yüksək dağlıq rayonlarda “yarı qaradam”, “qülləvari” evlərin tikintisi düzgün seçim idi.

Bakının sadə düzülüşü mülk evləri xarakterinə malik idi azmərtəbəli evləri sonradan məhəllə, kvartallara qruplaşaraq daha mürəkkəb həcm-məkan quruluşuna çevrilmiş, küçəyə qarşı xətti plan əldə etrmişdir. Abşeron evlərinin planlaşması adətən həyət boyu bir cərgəli otaqlardan ibarət “L” və nadir hallarda iki cərgəli otaqlardan ibarət “U”şəkilli idi. Çox zaman təsərrüfat yerləşgələri olan bir, üç və

dörd otaqlı evlərə rast gəlinir....XIX əsrin ikinci yarısında amfilad ətrafında cəmləşən iki və ya üç otaqlı evlərə üstünlük verilirdi[3].

Abşeron evlərinin divar hörgüsü və memarlıq detalları əhəng daşından olduğundan onların qalınlığı bəzən 0.5-1 metrə çatırdı. Maştağa, Bilgəh, Buzovna və Şüvəlan kəndlərində evlər əsasən şərqə yönəldilir, onların dam örtüyünün yarısı yastı, yarısı da günbəzli idi. Küçəyə kor divarlarla çıxan evə həyətdən tağlı qalereyalar birləşirdi.

İçərişəhərdə bir neçə ailə üçün evlər qrupu qapalı məhəlləni xatırladan həyətin ətrafında perimetir boyu toplaşır, digərləri isə pilləvari relyefdə təkrarlanan ensiz küçələri formalaşdırırdı.

**2.2. Azmərtəbəli yaşayış evlərinin həcm-fəza və planlaşdırma strukturunun formalaşmasına iqlimin təsiri.** Kapitalizm dövrü üçün Bakı və Abşeronda neft mədənlərinə yaxın olan ərazilərdə sadə memarlığa malik evlərin və şəhər mərkəzində malikanə tipli evlərin tikintisi səciyyəvi idi. Məsələn, "Villa Petrolia" şirkətinin işçiləri üçün salınan qəsəbənin bir hissəsi ailəli işçilər üçün evlərdən, digəri isə subay fəhlələr üçün kazarmalardan ibarət idi. Sabunçu, Balaxanı, Suraxanı və Bayıl yaxınlığında mədənlərdə yerli ənənələri əks etdirən və ucuz başa gələn yaşayış evlərindən ibarət kiçik yaşayış məntəqələri salınırdı. "Qara şəhər"də sənaye bölgəsinə yaxın kiçik qruplarla yerləşən iki və üç mərtəbəli evlərin həcm-planlaşrma həllərində "qaradam"ların bəzı elementləri təkrarlanırdı.

XIX əsrin sonunda Avropa memarlıq üslublarında tikilən Bakı imarətləri əsasən iki və üç mərtəbəli həcm-fəza quruluşuna malik idi. İmarət evlərində dördbucaqlı otaqlar birtərəfli yerləşirdi, "U" şəkilli imarət evləri planda dördbucaqlı olub, birinci mərtəbə ikinci mərtəbənin planını təkrarlayırdı. Bu tip evlərin qonaq və yataq otaqlarını iki, bəzən üç tərəfdən eyvanlar əhatə edirdi. Abşeronda evin birinci mərtəbəsində otaqlar "T" şəkilli düzülür, mərkəzdə yerləşən salon ətrafında digər otaqlar qruplaşır və ikinci mərtəbəni ağac materialından hazırlanan şüşəbənd loci əhatə edirdi. Onların məhəllələ və küçələrə görə planlaşma sxemləri aşağıdakı şəkildə idi:

• Kvartalların dört tərəfinə çıxan imarət evləri;
• Kvartalların çox hissəsinə üç fasadı ilə çıxan evlər;

---

[3] Aliyev, I.O. Архитектура народных жилищ Абшерона. Журнал Architecture and Modern Information Technologies. №1(66). Москва-2024, s.104

• Küçənin başında aksent yaradan evlər;

• Kvartalda orta mövqe tutaraq iki fasadı küçələrə çıxan evlər.

• Fasadları ancaq bir küçəyə çıxan evlər.

Bunlara H.Z.Tağıyevin, M.Muxtarovun, A.Quliyevin, və b. imarət evlərini misal göstərmək olar. Bu evlərlə yanaşı Bakının yuxarı qərb hissəsində küçələr boyu salınan yarı şəhər, yarı kənd tipli evlər öz bədii tərtibatı, plan həlli baxımından daha sadə olsalar da, bu küçələrin memarlığında vurğulayıcı təəssürat yaratmışlar.

Abşeron şəraitində bəzən eyvan əvəzinə şəbəkəli pəncərələrin verilməsi iç məkanları qızmar günəşdən qoruyurdu. İqlimin təsirinin müsbət tərəfə yönəlməsində evlərin daxili həyətlərinin olması şərt idi. Otaqların xətti düzülüşü zamanı eyvanlar həyətlə əlaqə yaradaraq insolyasiya şəraitini təmin edirdi. Bəzən otaqların qarşısında eyvan əvəzinə əlavə meydança-artırma nəzərdə tutulurdu. Onların tağlı qalereyaları regionda geniş istifadə edilən daş materialından idi. Evlərin fasadlarına erkerlərin əlavə olunması, asimmetrik pəncərələr və s. bu tikililərin memarlıq görkəminə yenilik gətirmişdi.

**2.3. Azmərtəbəli yaşayış evlərinin konstruktiv sxemləri və bəzək elementləri.** Azmərtəbəli evlərin daha iri tutumlu olması, təbiətə yaxınlığı, xidmət, mətbəx, yaşayış sahələrinin genişlənmə imkanları, insolyasiya və aerasiya rejimlərinin əlverişli təşkili kimi üstünlükləri ortaya qoyur. Bakının azmərtəbəli yaşayış evlərinin inşa edilmə formalarını üç qrupa ayırmaq olar:

•Şəhərətrafı zonalarda həyətyanı sahələrı malik olanlar;

• Bakının tarixi hissəsini formalaşdıran kiçik miqyaslı kvartal sistemində yerləşənlər;

• Çoxmənzilli bloklaşdırılmış evlər.

Bakı-Abşeron isti iqlim şəraitində eyvanın istifadəsi zəruridir. Lakin Abşeronun azmərtəbəli yaşayış evlərində qapalı eyvanlardan istifadə edilmirdi, belə eyvanlar Azərbaycanın digər regionlarında geniş yayılmışdır.

Yasamal rayonunda bəzən ev ətrafında kiçik həyətlərin verilməsi mənzillər üçün açık istirahət yerlərinin yaranmasına imkan yaradır. Xətti qruplaşma ilə yanaşı bəzi evlərin ərazilərdə azad yerləşməsi mənzilləri genişləndirir. Bu, azmərtəbəli evlərin müxtəlif konstruktiv sxemlərinin yaradılmasına imkan verir. Həmin sxemlər plan quruluşu, evlərin tipləri

və tikinti materialının xüsusiyyəti ilə seçilir. Yükdaşıyan konstruksiyaları monolit, karkas uzununa və ya evinə yük daşıyan divarlar şəklində təsnifatlandırmaq olar.

Konstruktiv sxemlər arasında ən geniş yayılan Bakı-Abşeron şəraitində hələ tarixən formalaşan, damında günbəz elementləri olan evlərdir. Abşeron evlərinin konstruktiv quruluşu sadə olmaqla tavanları əsasən yastı şəkildə işlənirdi.

Həyətyanı sahələri olan evlərin təsərrüfat yerləşgələrinin bəzilərinin divarlarının qalınlığı 2-3 sm olan ağac qabırğasından hazırlanaraq hər iki tərəfinə samanla qatılaşdırılmış gildən suvaq çəkilirdi. Bu yüngül divar konstruksiyası XX əsrin ortalarında formalaşan“Sovetski” yaşayış rayonunun evlərində geniş yayılmışdı. Özüllər və kürsülər qırma “but”, üst divarlar isə əhəng daşı ilə hörülürdü. Şəhər mərkəzində 2-4 mərtəbəli fərdi binaların inşasında birtərəfli yonulmuş yerli daşla birgə but daşından da istifadə edilirdi.

İki-üç mərtəbəli imarət evlərinin bədii tərtibatında əhəng daşından hazırlanmış müxtəlif dekorativ formalardan istifadə edilirdi. Evlərin giriş qapı və çərçivələri oyma dekorativ naxışlarla bəzədilirdi. Cilalanmış və üzəri naxışlanmış daşlardan müxtəlif memarlıq detalları hazırlanırdı. Abşeron evlərinin memarlığı ciddi və lakonik idi. Adətən arxa fasad küçəyə baxır və bədii elementlər və tağlarla bəzədilirdi. Daxili həyətə baxan baş fasad dekorativ həlldən məhrum idi, yalnız girişi və pəncərə açırımları ilə diqqət çəkirdi.

Yerli memarlıq motivləri ilə yanaşı Avropa memarlıq üslublarını təmsil edən yeni material və konstruksiyalar hesabına çox maraqlı bəzək elementləri yaranmışdır. Bu özünü fasadları bəzəyən portallar, girişlər, pəncərələrdə istifadə olunan oyma daş naxışlarda göstərir.

**2.4. Abşeronda azmərtəbəli yaşayış evlərinin memarlığının Azərbaycanın digər bölgələrinin azmərtəbəli yaşayış evləri ilə müqayisəsi.** Azərbaycanın müxtəlif cografi regionlarında yaşayış evlərinin memarlıq xüsusiyyətləri bölgələrin təbii-iqlim və məişət ənənələrinə, yerli inşaat materiallarına uyğun formalaşmışdır. Orta əsrlərdə və sonrakı dövrlərdə bu xüsusiyyətlər özünü evlərin plan quruluşunda, ərazidə yerləşməsində, konstruktiv həlləndə göstərir.

Ölkənin şimal-qərb şəhərləri dağlıq bölgədə yerləşdiyindən onların yaşayış evlərinin formaları daha çox qala tipli olmaqla qülləni

xatırladırdı. Digər bölgələrə nisbətən əhalinin sıxlığı az olduğundan bu evlər bir-birindən aralı yerləşməklə özünəməxsus yaşayış mühiti formalaşdırır. Bu tip evlərə daha çox Zaqatala rayonunda rast gəlinir.

Lənkəran şəhərinin qala quruluşununin sahil planlaşma xarakterinə dəyişməsi Lənkaran çayın hər iki tərəfində yaşayış evlərinin xətti-siravi düzülüşünə səbəb olmuşdur. Şəhərdə köhnə qalanın ərazisində kazarma tipli evlər, bazar ətrafında isə imarətlər tikilirdi. Şəhərin köhnə hissəsində-baş küçədə yaşayış evlərini əsas həcmə bağlayan, yay sahəsini xatırladan köşklər-ləmlər yerləşirdi.

Dağ yerlərində qala tipli köşklü evlər tikilirdi. Zaqatalada evlərin mərkəzi kompozisiyasını təşkil edən qonaq otağı, ikinci mərtəbədə vahid sütun-dirək konstruksiyası olan və yüksək kürsülər üzərində yerləşərək yağıntılardan qorunan, eyvanları otaqlara açılan ləmlə əlaqələnən taxta "bağdadı" evlər geniş yayılmışdı.

İri şəhərlərdə yeni yaranmış texnologiyalar yaşayış evlərinin qarşısına daha çox şərtlər qoyurdu. Sıravi insanların evlərində otaq sayı bir mərtəbədə dördə çatdığı halda, malikanələrdə otaqların sayı daha çox idi. Bu səbəbdən onların plan quruluşu "L" və "U" şəkli almaqla açıq eyvanlara və şüşəbəndə malik idi. Şəki bölgəsində memar A.Mehdiyevin birmərtəbəli imarət evində təsərrüfat və mətbəx bloku ayrı verilmiş, lakin eyvanla əlaqələnmişdir.

XX əsrin əvvəlində imarətlərin iç məkanında xalq memarlığına xas olan ənənəvi memarlıq elementləri fərqli verilirdi. Məsələn, şəbəkəli vitrajlar tək şüşəbəndin pəncərələrində deyil, ev əşyalarında da istifadə olunurdu. Buxarılar iki otaq arasında sobanı əvəz etməklə həm də interyerə dekorativ görkəm verirdi. Ordubad imarətlərində otaqların sayı altıdan çox olduğundan girişlə bağlanan altıbucaqlı vestibül günbəzlə örtülürdü. İmarətlərin fasadlarının həllində iri baştağ və şəbəkədən istifadə olunurdu. Ordubad, Şəki-Zaqatala və Lənkəran evlərinin memarlığı təbii-iqlim, coğrafi mövqe, yerli inşaat materialları və ənənələrlə bağlıydısa, Bakı-Abşeron bölgəsində bu deyilənlərlə yanaşı daha çox sosial amillər öz təsirini göstərirdi.

## Fəsil III. Müasir dövrdə Bakı və Abşeronda inşa edilən azmərtəbəli yaşayış binalarının memarlıq-planlaşdırma həllərində iqlim amillərinin nəzərə alınması.

**3.1. Azmərtəbəli evlərin iqlimə görə layihələndirilməsi.** Bakının şimal-qərb ərazilərində qarışıq mərtəbəli və azmərtəbəli villa tipli evlər müxtəlif əhali tərkibinin tələblərinə uyğun olaraq nəzərdə tutulub. Onların ümumi kiçik həyətyanı sahələrlə təchiz olunması, ətraflarında gündəlik xidmət obyektlərinin yerləşdirilməsi məqsədəuyğundur. Azmərtəbəli evlər təbiətə yaxın və sahə genişliyinə malik olduqlarından komfortluq baxımından digərlərinə görə üstündürlər. Onlar konstruktiv sadəliyi ilə bərabər, istifadəsinə görə də əlverişlidir. Azmərtəbəli tikinti təşkilində temperatur, külək, yağıntı, relyef, yaşıllıq, torpağ münbitliyi və s. aparıcı ünsürlərdir.

Yerli təbii-iqlim şəraiti Bakıda Şərq yaşayış massivi, Mərkəzi rayon, Qaraçuxur, Yasamal rayonlarının, Qanlı gölün sol sahilində yaşayış kompleksinin və s. azmərtəbəli evlərinin memarlığında nəzərə alınmışdır. Bu yaşayış kompleksləri Bakı şəhərinin planlaşma strukturunun sərhədlərində yerləşdiyindən, onların oxşar cəhətləri çoxdur. Lakin mikromühit, relyef fərqləri və şəhərin müxtəlif ərazilərində yerləşməsi ilə əlaqəli komplekslərin fərqliliyi onların cəhətlənməsində, mənzillərinin planlaşma strukturunda və yeni memarlıq elementlərinin təzahüründə və s. özünü göstərir.

Ərazi seçimi baxımından iqlimdən yararlanmaq üçün Bakı şəhərində evlərin yeri daha çox külək tutan, sərin yerdə seçilmişdir. Lakin, evlərin şimala baxan divarları sərt küləyin təsiri ilə daha çox nəmliyə məruz qalır. Bu da bina arası hava cərəyanının hərəkətini və daxili məkanlarda mikromühit komfortluğunu təmin edir. Bakı şəraiti üçün şərqdən əsən külək təbii ventilyasiya yaradan amil kimi qiymətləndirilə bilər. Evlərin memarlıq həllinə təsir edən amillərin müəyyən edilməsi üçün onun funksional məzmununa, iqlim şəraitinə, bədii obrazına uyğun qurulması vacib tələblərdəndir.

Bakının şimal-qərb yaşayış rayonu müxtəlif relyef xüsusiyyətinə malik olduğundan burada bir-birindən fərqli xətti, zolaqlı, qruplaşmış, dağınıq və s. planlaşma üsulları tətbiq olunur. Bu, yaşayış rayonu üçün layihələndirilən villa tipli yaşayış evləri, azmərtəbəli və orta mərtəbəli evlərdir. Digər tərəfdən, villa tipli evlərin uyğun mövqe tutması aerasiya rejiminin yaradılması ilə yanaşı binaların fərdi forma alması sayəsində maraqlı kompozisiya ortaya qoyur. Fərdi layihələndirmə əsasında aparılan villa tipli azmərtəbəli tikintilər orta və yüksək mərtəbəli

rayonların ətrafında yerləşmişlər. Şəhər mərkəzində yüksək mərətəbəli evlər geniş yayıldığı üçün azmərtəbəli evlər kənar zonalara da çıxarılmışdır.

Bu gün Bakının ətraf zonasında Sulutəpə, Mehdiabad, Müşfiq, Masazır kimi qəsəbələrdə azmərtəbəli evlərdən ibarət yeni yaşayış massivləri yaranmışdır. Onların Bakıya nisbətən daha yüksək yamaclarda yerləşməsi bu massivlərin müsbət tərəfidir. Lakin hədsiz tikinti sıxlığı, yaşıllıqların qıtlığı və planlaşma strukturunun pozulması həmin ərazilərin təbii-iqlim şəraitini pozan amillərdir.

**3.2. Abşeronun bağ evlərinin memarlığında iqlim amillərinin nəzərə alınması**. Abşeronun şimal sahili yerli əhalinin bağçılıq sahələri olmuşdur. İstirahət formalarına görə Abşeronun bağ evlərini I və II səviyyəli imarət tipli evlər və əhalinin kütləvi istirahəti üçün nəzərdə tutulan sadə bağ evləri kimi kateqoriyaya ayırmaq olar. Abşeronun cənub və cənub-şərq sahillərində və yaxın qəsəbələrdə tikilmiş azmərtəbəli evlərin bir qismi də bura aiddir .

Bakının imkanlı sakinləri öz yay istirahətləri üçün Abşeron sahillərində imarətlər ucaltmış və ətraflarını abadlaşdırmışlar. XIX əsrin sonundan başlayaraq Mərdakanda, Buzovnada, Bilgəh və Pirşağı kəndlərində belə bağ evləri daha geniş yayılmışdır. Bu evlərin memarlığında tətbiq edilən yerli və Avropa memarlıq üslubları onların aparıcı memarlıq elementlərində, balkon və şüşəbəndlərin bəzədilməsində müşahidə olunur. Öz həcmi və memarlığı ilə fərqlənən H.Z.Tağıyevin, M. Muxtarovun, Ş. Əsədullayevin və b. imarət evləri buna misal ola bilər. Mərdəkanda daha bir neçə imarət evləri (Ə. Aşurbəyovun, T. Səfərəliyevin və b.) öz günbəzli qüllələri ilə fərqlənir. Onlar çox kiçik saray komplekslərini xatırladırdı, çünki ərazisində iri həcmli binadan əlavə abadlaşmış park, su ambarları, hovuzlar, bir sıra təsərrüfat tikililərini də yerləşdirirdi.

Abşeron kəndlərində imarət tipli və kütləvi istirahət üçün nəzərdə tutulan sadə tərtibatlı bağ evlərinin memarlıq-planlaşdırma həlli regional və iqlim xüsusiyyətlərinə uyğunlaşmışdır. İsti iqlimi nəzərə alaraq bu evlər balkon və açıq terraslarla təchiz olunmuşdur. Binaya yaxın yerləşən hovuzlar mikroiqlimi yumuşaltmaqla, həm də bədii-estetik effekt verirdi. Evin mərkəzi girişinin üzərindəki açıq balkonun salon qarşısında yeri onu təbii işıqla təmin edir.

Bakı sakinlərinə sahilyanı sahələrin paylanması Abşeronun sahilyanı ərazilərində çox sayda 1-2 mərətəbəli sadə bağ evlərinin tikilməsinə səbəb oldu. Abşeronun bağ evlərinin tipoloji təhlilləri onları aşağıdakı cəhətlərə görə üç tipə bölməyə əsas verir:

I tip - XIX-XX əsrin əvvələrinə aid və fərqli memarlıq üslubları təmsil edən imarət tipli evlər. Onların ərazidə yerləşmə xarakterində, memarlıq həllində yerli iqlim amilləri nəzərə alınmışdır.

II tip - XX əsrin ikinci yarısında antropogen təsirlərdən pozulmuş sahilyanı Abşeron kəndləri ətrafında bağçılıq təsərrüfatı təşkil edən fərdi kiçik sahələrdə yerləşən və təbii-iqlim şəraitinə uyğun tikilən bağ evləri. Yerindən asılı olaraq bəzi bağ evi dörd tərəfdən onu güclü xəzri küləyindən qoruyan eyvanlarla əhatə olunur, burada günün hər bir vaxtında kölgəliyin yaradılması mümkündür.

III tip - ayrı-ayrı təşkilatlar tərəfindən paylanmış bağçılıq təsərrüfatlarının evləri. Ailəvi istirahəti təmin edən, səmərəli texnoloji və konstruktiv həllərə malik bu tip evlər Abşeronun cənub sahilində salınmışdır. Qobustan-Şıxlar qəsəbəsində vahid planlaşma üsulu əsasında aparılmış eyni ölçülü yay evlərinin şərqə və cənub-şərqə cəhətlənməsi onları günəşdən və şimal küləklərindən qoruyur.

1950-ci illərdən sonra Abşeronun şimal və cənub sahillərində salınmış xətti mikroərazilər daxilində evlər insolyasiya və aerasiya rejimləri baxımından əlverişlidir. Yarımadada günəş və külək güclü təbii-iqlim amilləri olsalar da, lazım olan hallarda onların süni şəkildə idarə olunması hesabına azmərtəbəli bağ evlərində komfortun yaradılması mümkündür. Beləliklə, bölgədə külək və günəş enerjisindən səmərəli istifadə əlverişli amil kimi düzgün aparılmışdır.

**3.3. Binalarda istifadə olunan material və konstruksiyaların iqlimə görə seçilməsi.** Bakı-Abşeronun azmərtəbəli yaşayış evlərində səmərəli inşaat materiallarının və konstruksiyaların seçiminə diqqət edilmişdir. Hörgü materialı kimi bölgədə əsasən əhəng daşı və kərpicə üstünlük verilmiş, memarlıq elementləri və konstruksiyalar da əhəng daşından qurulmuşdur.

Abşeron bağlarında bəzi evlər seysmikliyi nəzərə almaqla karkas daşıyıcı sistem əsasında tikilmişdir. Azmərtəbəli evlərin divarları karkas və ya uzununa və eninə divarlarla tikilmiş monolit dəmirbeton lentvari və qarışıq üsulla olmaqla, onların bünövrələri isə but betondan

hazırlanmışdır. Bir sıra azmərtəbəli evlərin üzlüklərində cilalanmış təbii qaya daşından istifadə bu evlərə daha möhtəşəm görkəm vermişdir. Yerli daşla tikilən evlər ilə yanaşı yeni texnologiya əsasında hazırlanan materialların da yüksək nəmliyi olan Bakı üçün istifadəsi diqqət çəkir. Bakı şəhərinin təbii-iqlim şəraitini nəzərə alan bu fikir öz əksini müəllif tərəfindən təklif olunan eskiz layıhədə də tapmışdır.

Müasir materialların azmərtəbəli yaşayış evlərində istifadəsi onların konstruktiv həllində böyük rol oynayır. Belə ki, tikinti prosesinin texnoloji səviyyəsini gücləndirmək məqsədilə daha rasional üsula imkan verən həm yeni, həm də ənənəvi tikinti materiallarının istifadəsi özünü doğruldur. Çünki yerli inşaat materiallarını (əhəng daşını) süni əldə edilmiş materiallarla (keramzit, saxsı dolğular, onların birləşimi və s.) çox asan şəkildə bir arada istifadə etmək mümkündür.

Azmərtəbəli evlərin bərpası və yenidənqurma işləri zamanı uyğun konstruksiyalar təklif olunmalıdır. Bunun üçün konstruksiyaların isti-soyuq keçirmə müqavimətinin yüksəldilməsi; konstruksiyaların ətraf mühitdən asılılığının qismən aradan qaldırılması; konstruksiya və otaqların günəş şüalarından qorunması; ağıllı evlərin konstruktiv həlli və s. prinsiplərdən istifadə edilməlidir.

## Tədqiqatın əsas nəticələri:

Bakı-Abşeron bölgəsində azmərtəbəli evlərin xüsusiyyətləri tədqiq edilmiş və aşağıdakı nəticələr əldə edilmişdir.

1.Bakı şəhərinin azmərtəbəli yaşayış evlərinin inkişafına təbii-iqlim amillərinin təsirinin nəzərə alınması hələ qədim dövrlərdən indiyə qədər aparıcı amil olmuşdur. Bakının şəhərsalma tarixində bu yaşayış tipləri inkişaf mərhələsi keçərək çağdaş yaşayış binasının yaradılmasına, onun memarlıq həllinə, bədii tərtibatına, konstruksiya və kompozisiya quruluşlarına təsir etmişdir.

2. Bakı-Abşeronda formalaşan evlərin memarlığına bölgənin təbii iqlimi, dini və məişət ənənələri təsir etmişdir. Günəş radiasiyası, temperatur dəyişmələri, nəmlik və yağmurun miqdarı aparıcı amil olaraq ərazinin plan tərtibatında, iç məkanın təşkilində və evlərin tipoloji xüsusiyyətində özünü biruzə vermişdir. Bu evlər kiçik həyət birləşməsindən məhəllələr təşkil edərək dalan-döngə strukturu

yaratmışdır. Azmərtəbəli mülk tipli evlərdən ibarət olan kvartallar ölçü, yön, evlərin düzülüşü, memarlığı baxımından fərqlənmişdir.

3. Bakı-Abşeron bölgəsində adi yaşayış evlərindən əlavə azmərtəbəli bağ evləri də bir neçə tipdə inşa edilmişdir. Birinci tip - mövsümi istifadə edilən, əhalinin kütləvi yay istirahəti üçün bir ailəyə ayrılmış evlərdir. İkinci tip - XIX- XX əsrlərin əvvəllərində tikilən mülk tipli imarət bağ evləridir. Üçüncü tip - sərbəst plan həllinə, əlverişli cəhətlənməyə, böyük ölçülərə və yüksək komfort şəraitlərinə malik villa tipli evlərdir.

4. Bakının azmərtəbəli evlərinin həcm-fəza və planlaşdırma strukturunun formalaşması, cəmiyyətin inkişaf səviyyəsinə, şəhərin statusuna, iqtisadi şəhərsalma mahiyyətinə (məhəllə, kvartal, mikrorayon və qruplaşmış kompleks strukturları kimi) uyğun olaraq inkişaf tapmışdır. Onların plan quruluşu mənzillərin otaq sayından, bir və ya iki tərəfə çıxan otaqların planlarında balkon, loci və s. kimi yay sahələrinin müxtəlif formalarından asılı olaraq formalaşmışdır.

5. Azmərtəbəli evlərdə istifadə edilən material və konstruksiyaların tədqiqatı göstərir ki, Bakı-Abşeronun azmərtəbəli evlərində yerli əhəng daşı, həm də süni yolla alınan materiallardan istifadə edilir. Xəzər dənizinin təsirindən, Bakı-Abşeron bölgəsində nəmliyin çox olması səbəbindən divar səthlərinin üzlənməsində köpük polistirol və köpük beton material, divar hörgülərində isə şüşəbeton və bir neçə qatlı polisterol materialları istilik izolyasiyasını təmin etmiş olar. Təklif edilən konstruktiv sxemlərdən ən səmərəlisi karkas əsaslı evlər daha dözümlü, uzun ömürlüdür.

6. Azmərtəbəli evlərin konstruktiv sxemləri iqlimlə yanaşı, mərtəbə sayından, yerli inşaat materiallarının xüsusiyyətindən və texnoloji proseslərdən asılı olaraq işlənmişdir. Eninə və uzununa yükdaşıyan divar konstruksiyaları ilə yanaşı karkas konstruksiyalı binalar da ucaldılırdı. Bu binaların divarlarında doldurucu kimi bir neçə qatlı yüngül materiallar seçilə bilər. Qalınlığı bir o qədər də çox olmayan bu materialların isti-soyuğa müqaviməti yüksəkdir.

7. Bakı-Abşeronun azmərtəbəli evlərinin digər regionların yaşayış tikililəri ilə müqayisəsi onların arasında oxşarlıqdan çox fərqliliyin olmasında özünü göstərir. Bu fərq, Ordubad evlərinin mürəkkəb plan quruluşunda, yay sahələrinin yerləşməsində, həyətlərin

istifadəsində, Lənkəranın isti subtropik şəraitində evlərin bir tərəfli otaqlarının qarşısında açıq eyvanın və evlərə birləşən bir neçə mərtəbəli "ləm"lərin verilməsində, Zaqatalada evlərin qaya qırıntılarından ucaldılaraq təbii-iqlimə və relyefə uyğun silindirvari görkəm almasında, ərazidə pərakəndə yerləşməsində özünü göstərir.

8. Bakı şəhəri və onun ətrafında ucaldılan azmərtəbəli evlərin, villa və bağ evlərinin memarlıq-planlaşdırma və konstruktiv daşıyıcı sisteminin formalaşmasında təbii-iqlimin nəzərə alınması ən əsasdır. İqlimin təsirini səmərəli istifadə edərək daha komfort və rahat azmərtəbəli evlər ucaldıla bilər. Burada seçilən müasir materiallar, konstruktiv daşıyıcı sistem və texnoloji proseslər əsas rol oynayır.

9. Davamlı inkişaf konsepsiyası müasir yaşayış evlərinin memarlığında xüsusi əhəmiyyət kəsb edir. Hazırda azmərtəbəli evlərin tikintisinin dünya təcrübəsində innovativ "təmiz" texnologiyalardan istifadə etməklə işlənmiş "eko-qəsəbələrin" tikinti konsepsiyası da geniş yayılmışdır. Davamlı inkişaf şəraitində azmərtəbəli evlər bu prinsiplərə daha çox uyğun gəlir.

10. Bu gün Abşeronda azmərtəbəli yaşayış evlərinin formalaşması üçün əsas və vacib şərt günəş enerjisindən isitmə, enerji istehlakı və sair üçün səmərəli istifadə etməklə enerjiyə qənaət edən binaların tikintisinə üstünlük verilməsidir. Ətraf mühitə vurulan zərərin və enerji istismarı xərclərinin minimuma endirilməsini təmin etmək üçün təbii-iqlim amillərini nəzərə alan passiv texnologiyalı passiv tikintiyə üstünlük verilməsi qənaətinə gəlinmişdir. Dissertasiyada azmərtəbəli evlərin passiv soyudulması, radiasiyanın çox olduğu damlarda, şərq və qərb divarlarında minimal şüşələnmə, konveksiyanın modelləşdirməsi üçün günəş radiasiyasından istifadə kimi texnologiyaların tətbiqi tövsiyə olunur.

## Dissertasiya işinin əsas məzmunu aşağıdakı məqalələrdə əks olunaraq nəşr edilmişdir:


1. Влияние деловой активности на транспортную структуру Баку. Müasir şəhərin davamlı inkişaf problemləri adlı beynəlxalq konfrans, Bakı-2015. s.111-115.

2. Mehmanxana komplekslərinin xüsusiyyətlərinin təsnifatı. Kurortların, istirahət zonalarının və turizm yerlərinin memarlığı və şəhərsalma inkişafı adlı elmi konfrans, Bakı-2016. s.207.
3. Формирование жилой среды развивающихся малых городов Азербайджанской Республики. Наука, образование и экспериментальное проектирование, международная конференция, Москва – 2016, s. 274-275.
4. Bakının azmərtəbəli yaşayış evlərinin bədii tərtibatında müasir material və konstruksiyaların rolu. Dizaynın müasir problemləri elmi-praktik konfrans. №2. Bakı- 2018, s. 239-246
5. İqlimin memarlıq və şəhərsalmada təzahürü. AzMIU-nun "Elmi əsərlər" jurnalı. №2. Bakı- 2018, s. 13-16.
6. Bakının ekoloji durumuna təsir edən təbii amillər (iqlim, su, relyef, yeraltı və yerüstü sərvətlər). AzMİU-nun "Ekologiya və su təsərrüfatı" jurnalı, №3. Bakı-2018, s. 3-5.
7. Малоэтажная застройка в условиях жаркого климата реконструируемого крупного города. Проблемы градостроительной реконструкции, Сборник статей, Самарский Государственный Технический Университет, Самара-2019: s.255-260.
8. Abşeronun bağ evlərinin bədii-memarlıq həllinə külək və günəşin təsir dairəsi. AzMIU-nun "Elmi əsərlər" jurnalı. №1. Bakı- 2019, s. 32-36.
9. Планирование жилых зданий Баку в зависимости от природно-климатических условий, современных материалов и конструкций. Beynəlxalq Ukrayna-Azərbaycan elmi konfrans, Poltava- 2019, s. 217-223.
10. Влияние природно-климатических факторов Апшеронского полуострова на архитектурно-планировочные особенности малоэтажной застройки Баку. Журнал AMIT МАРХИ. №2(51). Москва-2020, s. 289-305.
11. Развитие градостроительной науки Азербайджана в советский период. Журнал Архитектура и Строительство России. №4. Москва-2021, s. 14-22.
12. Архитектура народных жилищ Абшерона. Журнал Architecture and Modern Information Technologies. №1(66).

Москва-2024, s. 101-111.



# Abşeronun təbii iqlim amillərin və onların xüsusiyyətləri

## Bakı -Abşeronda təbii iqlimin və digər amillərin azmərtəbəli evlərin memarlığına təsiri

1






2







Şəhərin iqlim pasportu

A-günəş radiasiyası. a- düz üfüqi səthə b.saquli səthin cəmi .v-düz- şaquli səthlərdə. q.Səmanın vəziyyəti B-temperatura və rütubət. a - havanın istiliyinin sutkalıq kursu b.maksimum hava istiliyinin təkrarlanması v. nisbi rütubətin gündəlik dəyişməsi. q-təkrarlanan nisbi rütubəti V. külək. a. külək istiqaməti ehtimal b. küləyin təkrarlanan sürəti. v. külək istiqamətinin sutkalıq kursu.Q. Kompleks qiymətləndirmə. a. ətraf mühitin rahatlığının xarakteristikası b.hava şəraitinin təkrarlanması D.şəhər ətkinli dairəsinin mikroiqlim ərazilərinin qiymətləndirilməsi. E. şəhər ərazisinin mikroklimatik rayonlaşdırılması

## Yeraltı suların Bakı ərazisində dərinlik səviyyəsi və növü







50-ci illərdə amfeteatr torpaqlarının istifadə xəritəsi

# Müxtəlif mövsümlərdə temperatur rejiminin Bakının yaşayış rayonlarının memarlığına təsiri

İqlimin memarlıq, forma və konstruksiyalara təsiri 1



qədim dövr memarlıq tikililəri

İqlimin məhəllə strukturuna təsiri




orta əsr tikililəri

İqlimin küçə quruluşuna təsiri



yaxın keçmişin tikililəri

İqlimin pilləkənvari azmərtəbəli evlər qurupuna təsiri 2



3 Küləklər toru




4 İqlinim relyef mailliyində və yaşıllıqların quruluşunda nəzərə alınması




Binanın yan sahələrində iqlimin nəzərə alınması 5



İqlimin memarlıq formalarında nəzərə alınması 6



# Təbii və Sosial faktorların şəhər mühitinə təsiri və azmərtəbəli evlərin plan quruluşunda onların nəzərə alınması
















**İnzibati bölgəyə görə Bakı əhalisi (min nəfər)** 6

| İnzibati rayonlar | yanvar ayına | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1980 | 1985 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
| Ümumilikdə Bakı şəhəri rayonlar daxil olmaqla | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] |
| Binəqədi | 183.3 | 189.9 | 210.3 | 211.7 | 213.3 | 215.1 | 216.8 | 218.9 | 221.1 | 221.6 | 224.5 |
| Əzizbəyov | 117.8 | 114.1 | 117.1 | 117.8 | 118.6 | 119.3 | 120.1 | 121 | 121.9 | 123.3 | 124.8 |
| Xətai | 232.2 | 217 | 216.6 | 217.8 | 219.6 | 221.5 | 223.3 | 226.0 | 229 | 231.3 | 236.9 |
| Qaradağ | 89.4 | 94.3 | 95.2 | 96.5 | 97.1 | 97.7 | 98.6 | 99.8 | 101 | 102.2 | 104.4 |
| Nərimanov | 160.6 | 160.1 | 149.6 | 149.4 | 152.1 | 150.7 | 151.2 | 152.4 | 153.6 | 156.1 | 156.7 |
| Nəsimi | 204.5 | 202.4 | 196.4 | 197.4 | 197.9 | 198.8 | 199.4 | 200.1 | 200.8 | 202.1 | 203.8 |
| Nizami | 159.2 | 151.1 | 159.8 | 160.7 | 161.8 | 162.9 | 163.9 | 165.3 | 167.5 | 170.4 | 172.8 |
| Sabunçu | 198.2 | 190.5 | 186.5 | 190.3 | 192 | 193.1 | 194.3 | 196.6 | 197.4 | 199.6 | 201.7 |
| Səbail | 90.7 | 75 | 74.4 | 74.9 | 75.3 | 75.8 | 78.4 | 77.2 | 78.5 | 79.7 | 81 |
| Suraxanı | 140.9 | 151.1 | 166 | 169 | 169.2 | 170.3 | 171.6 | 173.1 | 173.1 | 177.5 | 179.9 |
| Yasamal | 220.2 | 220 | 222 | 222.6 | 223 | 223.6 | 224.2 | 225.8 | 227.8 | 229.4 | 231.3 |

# Tikinti materialları və küləklənmənin azmərtəbəli yaşayış evinin tikintisində rolu



# Azmərtəbəli yaşayış evlərinin tipoloji əsasları

## Qədim və orta əsrlərdə təbii iqlimin təsirində formalaşanevlərin tipoloji növləri

Bakı kəndlərinin ev tipləri planda və fasadda 1




şəhər qalasının məhəllə ev tipi 2



3 əhmədli qala evi



4 Abşeron kənd evi daxilindəki istirahət meydancası



5 Əhmədli yaşayış evi qarşısında sərinlikvermə xüsusiyyəti



6 ƏN BÖYÜK ŞƏHƏRİN YAŞAYIŞ FONDU

| illər | Azərbaycan üzrə | Bakı | Gəncə | Sumqayıt |
|---|---|---|---|---|
| 2000 | 486.000 m2 | 153.5000 m2 | 7 7000 m2 | 3 9000 m2 |
| 2001 | 560 000 m2 | 119.8000 m2 | 9 7000 m2 | 2 9000 m2 |
| 2002 | 803 000 m2 | 152 90093 m2 | 91. 55 m2 | 5493 m2 |
| 2003 | 1339 000 m2 | 376 112 m2 | 30 339 m2 | 12 354 m2 |
| 2004 | 1359 000 m2 | 518 535 m2 | 22 145 m2 | 16 409 m2 |
| 2007 | 1610 000 m2 | 650 192 m2 | 29 253 m2 | 736 79m2 |
| 2010 | 1745 000 m2 | 847 340 m2 | 33 340 m2 | 77250 m2 |
| 2017 | 1828 000 m2 | 1679400 m2 | 39750 m2 | 108 500 m2 |

Şəhla Kaxramanova

## 2.2

cədvəl 25

# Azmərtəbəli yaşayış evlərinin həcm-fəza və planlaşdırma strukturunun formalaşmasına iqlimin təsiri

1 Həyətli yaşayış evlər inin planlaşdırma düzülüş formaları(fərdi və bloklaşdırılmış)



2 Fərdi planlaşdırma və blok tipli memarlıq həlli olan həyət evi




3 xalq yaşayış evi tipində cəhətlənmələr



4 həyətsiz bloklaşmız yaşayış evi



Bakının Zaqulba qəsəbəsində dörd mənzilli yaşayış evi

Təbii Amillər təsirində yaşayış evinin planlaşdırmasında aparılan dəyişiyliklər (a,b,c,)



5

a.yemək otağı ilə mətbəxin calanması



b.bir otaqlı evdə uşaq üçün otağın ayrıması



c. İki səviyyədə həll olunan otaqların yerləşmə prinsipləri

2.2 cədvəl 27

# Bakıda yaşayış evlərinin və mənzil tiplərinin düzülüş formaları (fərdi, sərbəst, dəhliz əsasında və bloklaşdırılmış



Ala-tava (şimal qərb yaşayış rayonu )massivindəfərdi yaşayış evlərinin düzülüşü



Şərifzadə küçəsində ( şimal-qərb massivi) dəhliz əsasında





yığılan mənzillər (Mehmanxana tipində)





Bloklaşdırılmış az mərtəbəli yaşayış evlərinin sxemləri və tipləri

2.3

cədvəl 31

# Abşeronun azmərtəbəli binalarının Azərbaycanın digər bölgələrinin ənənəvi yaşayış binaları ilə müqayisəsi

## Abşeronun qədim,orta və XX əsrdə ənənəyə uyğunlaşdırılmış yaşayış evləri

1 Qədim ənənəvi Abşeron evi



2



Xanın yay evi

Qaladan şəhər mühitinə baxış 3



4 XIX əsr yay yaşayış evi



Zaqulbada yaşayış evi (neft işçiləri üçün) 5






# Bakı-Abşeron şəraitində günəşdən və şimal küləklərindən qorunmanı nəzərə ala bilən vasitələr ,düzgün cəhətlənmə və xətti planlaşdırma şəraitində mikromühitin yaradılmasına aid tösiyyələr



# Azmərtəbəli yaşayış evlərində inşaat materallarının təkmilləşdirilmiş tipləri. Karkas əsaslı bloklaşdırılmış evlər



1 Fasad həlli forması




Tikinti materiallarının zəyif və üstün tərəfləri



3 Az mərtəbəli yaşayış evlərinin örtük həlli formaları



4 Azmərtəbəli yaşayış evlərinin fasad və plan həlli formaları





5

Az mərtəbəli yaşayış evlərinin karkas əsaslı bloklaşdırılmış evlərinin plan və gönüş həlli

Dissetasiyanın müdafiəsi “04” 04 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Memarlıq və İnşaat Universitetin nəzdində fəaliyyət göstərən BFD 2.29 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1073, Bakı şəhəri, A.Sultanova küç.11.

Dissertasiya ilə AzMİU-nun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “14” 02 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.02.2025

Kağızın formatı: A5

Həcm: 37229

Tiraj: 100